Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 37-44**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 37-44**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 37-44**

UOT 78.01

MUĞAM PROBLEMİNİN MULTİDİSSİPLİNAR TƏDQİQİNİN PERSPEKTİVLƏRİ

Sevil Fərhadova
Sənətşünaslıq üzrə elmlər doktoru
AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
E-mail: sevil.farhadova@gmail.com

Açar sözlər: *muğam, idrak, yaradıcılıq, konseptuallıq, harmoniya, proses, nurlanma.*

Mövcüd olan baxışlardan və mövqelərdən bir qədər kənarlaşaraq, bu məqalədə muğam irsi dünya qanunlarını rasional dərketməyə alternativ olan idrak üsulu kimi işıqlandırılır. Muğam fenomeni probleminin tədqiqində elmi axtarışın predmeti və obyekti kimi ətraf dünyamızın dərkində batini intuitiv duyumla zahiri fiziki qavrayışın arasında tarazlıq yaratmaqla Dünya Yaradıcılıq İdeyasının dərkinin əbədi axtarışında olan insan şüuru çıxış edir. Başlanğıc mövqe olaraq muğam probleminin multidistsiplinar yanaşma ilə öyrənilməsinin vacibliyi və perspektivliyi əsaslandırılır.

Məqalənin yeniliyi: Təqdim edilən məqalədə muğam probleminin multidissiplinar tədqiqatlarının predmeti və obyekti kimi öyrənilməsinin məhsuldar olduğu ilə bağli alternativ baxış öz məntiqli təstiqini tapır. Həndəsi işarə ilə eyniləşən erkən söz-kodların yeni oxunması təklif olunur.

С.Фархадова

ПЕРСПЕКТИВЫ МУЛЬТИДИСЦИПЛИНАРНОГО ИССЛЕДОВАНИЯ ПРОБЛЕМЫ МУГАМА

Ключевые слова: *мугам, познание, творчество, концептуальность, гармония, процесс, озарение*

Дистанцируясь от общепринятых взглядов и установок, в настоящей статье мугам освещается как, альтернативный рассудочному, способ научного постижения законов мироздания. Предметом и объектом изучения проблемы феномена мугама рассматривается находящееся в вечном поиске Идеи мироздания сознание человека, балансирующее между внутренним интуитивным и внешним физическим восприятием окружающего мира. С занимаемой позиции обосновывается важность и

перспективность междисциплинарного исследования проблемы мугама.

Новизна статьи. В статье логически обосновывается продуктивность альтернативного взгляда на проблему изучения мугама как предмета и объекта междисциплинарных исследований. Предлагается новое прочтение ранних слов кодов приравниваемых геометрическому знаку.

S.Farkhadova

PERSPECTIVES OF MULTSIDISTSIPINAR RESEARCH OF MUGHAM PROBLEM

Key words: *mugham, cognition, creation, conceptuality, harmony, process, illumination*

Avoiding the generally accepted views and attitudes, in this article mugham is elucidated as an alternative to the rational way of scientific comprehension of the laws of the universe. The subject and object of studying mugham phenomenon problem is the human consciousness that is in the eternal search for the Idea of the Universe, balancing between the internal intuitive and the external physical perception of the surrounding world. The initial position explains the importance and prospects of a multidisciplinary study of the mugham problem.

The novelty of the article. This report logically substantiates the productivity of an alternative view on the problem of studying mugham as a subject and object of interdisciplinary research. A new reading of the early words of codes equated to a geometric sign is proposed.

"Musiqi sənətlər sənəti və elmlər elmidir;
o, bütün biliyin mənbəyini ehtiva edir".
Həzrət İnayət Xan *(1882-1927)*

Hər bir fenomenal hadisə idrak subyektini onun başlıca, əsl mənasının əbədi axtarışına məhkum edən sirli dərinliklər, açılmamış qatlar və xüsusiyyətlərdən ibarətdir. Çoxəsrlik muğam probleminin bu gün də aktuallığını itirməməsi öz-özlüyündə diqqətəlayiq, düşünməyə sövq edən faktdır. Hazırda onun simptomatikliyini çoxsaylı məsələ və rakurslara toxunulmasına baxmayaraq, onların məcmu halında öyrənilən problemin dərinliklərinə nüfuz etməməsi və bütövlükdə bu fenomenal hadisənin mahiyyətinə aydınlıq gətirməməsi də göstərir. Muğam sahəsində aparılan tədqiqat axtarışları və tapıntıları nəticəsində illər keçdikcə problemə bəzi başqa yanaşmaların dərkinə tələbat aşkar surətdə

artmaqdadır.

Xatırladaq ki, musiqişünaslıqda analoji vəziyyət uzun illər musiqişünaslar tərəfindən təksəsli linear struktur kimi nəzərdən keçirilən monodiya problemi ilə də əlaqədar yaranmışdı. Və bu halda da sınama-yanlıma metodu ilə müəyyən olundu ki, monodiyanın mahiyyəti faktura ilə izah olunmur. Sonralar monodiyanın mahiyyətinin dərk olunmasında tədqiqatçıların diqqəti "xalis" musiqişünaslığın hüdudlarından çox uzaqda olan fenomenə – təfəkkür tipinə yönəldildi keçirildi. Bu sətirlərin müəllifinin məhz həmin mövqedən Azərbaycan ənənəvi monodik musiqisi və onun nüvəsinin – muğamın öyrənilməsi üzrə həyata keçirdiyi fəaliyyət nəticəsində tədqiqatlar dar "ixtisaslaşma" çərçivəsindən kənara çıxarıldı, illərlə "asılı qalmış", muğamın da daxil olduğu Azərbaycan, bütövlükdə dünya mədəniyyətinin fenomenal hadisələrinin elmi dərkində çıxılmaz vəziyyət yaradan suallara cavabların axtarışında yeni imkanlar aşkar olundu.

Göstərilmiş problemə dair müəllif mövqeyini şərh etməyə başlayarkən, ilk növbədə, Şərq təfəkkür tipi və bunun nəticəsi kimi Şərq dünyagörüşünün spesifikliyi məsələsinə aydınlıq gətirmək lazımdır. Toxunulan rakursda "Şərq təfəkkürü" anlayışının coğrafiya ilə bağlı olmayıb, tarixin ilk çağında dünyanı intuitiv surətdə – batini təfəkkür enerjisi ilə dərk edən insan şüurunun əzəli xüsusiyyətləri demək olduğunu nəzərə alaraq qeyd etmək lazımdır ki, qarşımızda tam həcmdə erkən yaradıcı təfəkkürün – nurlanmanın mahiyyətinin rasional dərki və məntiqi izahı kimi öyrənilməmiş və sanki həlledilməz məsələ meydana çıxır.

Toxunulan və tədqiqatda "qeyri-konkret təfəkkür prinsipi" kimi ifadə olunan məsələ tərəfimizdən mətbuatda və konfranslarda daha əvvəl işıqlandırıldığından, qısaca olaraq başlıca məqamı qeyd edim ki, bütövlükdə təfəkkürün iki qütbdən – fasiləsiz, batini (kontinual) və zahiri, diskret (korpuskulyar) qütblərdən ibarət dalğalı təbiəti işığın təbiətinə heyrətamiz dərəcədə uyğundur. Ehtimal ki, məhz buna görə də Həqiqətə nüfuzetmə kimi mənəvi akt İşıqla nurlanma kimi qavranılırdı. MUĞAM sözünün mənası azərbaycanlı nəsillərinin yaddaşında "nurlanma" kimi qalmaqdadır. İşıq-şüa təbiəti (impuls-dalğa) ən adekvat təcəssümünü ritm-tonda tapır. Mənəvi prosesin doğurduğu ritm-tonlar aləmi əzəldən Fikir Nurunu, Bilik Nurunu təmsil etmişdir.

Mücərrəd, məntiqi dərketmə təcrübəsinə malik olmayan, dünyanı "sıfır"dan dərk etməyə başlayan bəşəriyyət üçün dünya qanunları müstəsna surətdə nurlanma, yəni irrasional aləmə nüfuz etmə nəticəsində məlum və aydın olurdu.Bu halda belə bir nəticə hasil olur ki, bütün biliklərin mənbəyi yaradıcı prosesin – nurlanmanın özü olmuşdur. Şərh olunan tezisi qeyd edək: idrakın ilkin mərhələsi Biliklə nurlanma, yəni daxili (mənəvi) axtarış-inkişaf prosesində Biliyin yaranması ilə bağlıdır.

Qeyd edək ki, idrak sözü hələ biliyin özü deyil, bilik axtarışıdır. Deməli, idrakın mahiyyətini və eyni zamanda musiqinin mahiyyətini ayrıca götürülmüş nəyinsə işarələnməsi, təsbit olunması deyil, daimi hərəkət – transformasiya təşkil

edir. Yəqin ki, buna görə də indi zamansal sənət kimi başa düşülən musiqi keçmişdə Harmoniya yaradıcılığı ilə eyniləşdirilirdi. Bundan əlavə, əbədi hərəkət – Harmoniya qanunu üzrə təşəkkül kimi idrakın mahiyyəti musiqinin zamansal təbiətini izah edir.

Dünya Harmoniyası haqqında təsəvvür vəhdət-nurlanma aktı ilə başa çatan təfəkkür prosesinin strukturlaşdırılması təcrübəsindən əldə olunurdu. Konseptual nüvə kimi o, ayin təcrübəsinin mahiyyətini təşkil edirdi. Məntiqə görə, məhz refraksiya – tamlığa transformasiya nöqtəsinə qədər mənəvi axtarış – inkişaf vizual şəkildə iki qovuşan şüa ilə (həndəsi versiyada – romb) təmsil olunan mənəvi prosesin genişlənməsi-sıxılmasını konseptual baxımdan ifadə edən MU ĞAM kod sözünün konfiqurasiyasını təşkil etmişdir. Deməli, MU ĞAM[1] sözünün fonetikası əzəldən Biliklə nurlanmaya yönəlmiş mənəvi axtarış-inkişafın trayektoriyasını ifadə edilirdi. Bu söz ənənəyə çevrilərək, özünün milli lüğətlərdə qorunub saxlanan etnik versiyalarını yaratmışdır, məsələn, Azərbaycan dilində "muğam" ("nurlanma"), ərəb dilində "makam" ("mənəvi pillələr", yaxud "mənzillər"), yapon dilində "mu-qa" ("qeyri-Mən" halı), hind dilində "ra-qa" (mənəvi nur kimi başa düşülən "rəng").Əvvəldə isə o, inkişaf-təşəkkül prosesinin cizgilərini ifadə edən digər analoji sakral işarələrlə birlikdə dünya Prinsipini – idrak Prinsipini – nurlanmanı bildirən mənəvi söz-kodların vahid fövqəletnik sözlüyünə daxil idi.

Bu baxımdan musiqi dilinin universallığı haqqında geniş yayılmış fikir yalnız vurğu dəyişdirildikdə qanunauyğundur – musiqi universal dil deyildir, universallığın dilidir, əgər bu zaman universallıq dedikdə musiqi ilə eyniləşdirilən, tsiklik sistem əmələ gətirən vahid mənəvi idrak-yüksəliş prosesi başa düşülürsə.Yaradıcı prosesin dörd hissəli tsikli həyat tisklinə bərabər tutulurdu. Təkrarlanan qapalı dairəvi sistem kimi tsikl mahiyyət etibarilə statik vahiddir. O, qlobal mənəvi təşəkkül–inkişaf prosesinə daxil edildikdə dinamik, dramaturji əsasa çevrilir.

Başqa sözlə, bir dairənin (diskretin) arxasında dairələrin fasiləsiz silsiləsi (kontinuallıq) durur.Təəccüblü deyil ki, hər bir diskret varlıq əzəldən qlobal fasiləsiz inkişaf-yenilənmə prosesi kontekstində dərk olunurdu. İnkişaf-təkmilləşmə prinsipi kimi fasiləsizlik – fasiləlilik nisbəti təfəkkür prosesinin bütün mərhələlərində təzahür edir. Mədəni prosesdə o, Şərq (şüurun daxili amili) və Qərb (şüurun xarici amili) qütblərinin qarşılıqlı təsiri ilə ifadə olunur. Bədii janrda bu, dramaturgiyanın konseptual xətti və fabula məzmunudur. Müşahidə olunmuşdur ki, hətta adi nitqdə belə söz diskretlərinin arxasında həmin kontinual tərkib hissəsi durur [1].

[1] Tarixin ilk çağında idrakın anlayışlara əsaslanan təfəkkür və anlaqla bağlı olmaması haqqında əvvəldə qeyd olunmuş fikri nəzərə aldıqda, MU-ĞAM səs birləşməsi, geniş yayılmış fikrə rəğmən, əzəldən söz-anlayış ola bilməzdi və həndəsi işarənin səs ekvivalenti idi.

Göstərilən rakursda muğam problemi, ilk növbədə, insan şüurunun idrak aktında təzahür edən əzəli imkanlarının dərki ilə bağlıdır. Bu halda mədəniyyət hadisəsi kimi muğamın fenomenallığının və əhəmiyyətinin dərki yalnız onun yaradıcılıq məhsulu kimi öyrənilməsi ilə məhdudlaşa bilməz. Problemin tədqiqat üçün aşkar çətinliyi onun predmetinin və obyektinin bir qədər bəsitləşdirilmiş müəyyən edilməsinin nəticəsidir, əslində o, Varlığın qanunları və mənasının əbədi axtarışında olan insan şüurudur.Bilik sahəsindən asılı olmayaraq, hər bir yaradıcılıq məhsulu bütün dövrlərdə yalnız təfəkkür prosesinin nəticəsidir.Bütün biliklərin mənbəyini isə mənəvi inkişaf-təkmilləşməni təşviq edən bilik axtarışı prosesi təşkil edir.

Fikrin ikiqütblü təfəkkürdə toplanması mərhələsində olan bəşəriyyətin ilk çağında əsas yükü şüurun diskret daşıyıcıya – mücərrəd təfəkkürə reduksiya etdiyi dalğavari semantik kodları aşkara çıxaran batini təfəkkür daşıyırdı. Bundan sonra ehtimali birləşmə azadlığına yol verən prinsip üzərində əsası qoyulmuş kontinual mənaların "mexaniki hesablanması deyil, yaradıcı açılışı" (V.V.Nalimov) baş verirdi.

Qeyd etmək maraqlıdır ki, musiqinin mahiyyət tərəfi müxtəlif dövrlərdə özlərinin dalğalı kontinuuma transformasiya təcrübəsi ilə yaradıcı proses ideyasını dərk edən yaradıcı şəxsiyyətlərə açılırdı. Bu baxımdan müasir bəstəkar V.Martınovun sözlərində ifadə olunan aşağıdakı ehtimal diqqəıtəlayiqdir: "<....> musiqi insandan kənardadır. İnsan, praktik olaraq, musiqi yarada bilməz, musiqi insanın Kosmosla korrelyasiyasının nəticəsidir. <....> Əslində, Kosmosla bu korrelyasiya çox vacibdir. Və prinsipcə, biz onu bütün mədəniyyətlərdə görürük. <….> Və musiqi heç bir halda insan dili, hisslərin dili kimi başa düşülmür, məhz insanın Kosmosla qarşılıqlı münasibətlərinin harmoniyasını təmin edən müəyyən bir proses kimi başa düşülür". [2]

Mütəfəkkir-bəstəkar tərəfindən musiqinin mahiyyət tərəfinin təfsiri qədim mütəfəkkirlərin mövqeyinə heyrətamiz dərəcədə uyğundur. Mənəvi proses olaraq musiqi barəsində çoxdan təşəkkül tapmış təsəvvür, müəlliflərinin "ritmik dairələr" haqqında bilik adlandırdıqları musiqiyə aid traktatlarda əksini tapmışdır. Diqqəti bunun üzərində cəmləşdirək ki, məhz ritmik dairələr, yəni yaradıcılığın prosessual cəhəti nəzəriyyəsi orta əsrlər musiqi elminin əsasını təşkil edir.Sonrakı mütəfəkkir nəsillərinə miras qalmış erkən astroloji təsəvvürlər musiqi mətninə bənzəyir.

Batini (mənəvi) təfəkkürün mahiyyəti bundan ibarətdir ki, o, xarici aləmin konkret fenomenləri ilə deyil, dünya prosesinə aidiyyatının daxili duyğusu ilə bağlıdır. Bu mərhələdə dünyanı dərk edən insan özünü planetar aləmin ayrılmaz hissəciyi kimi hiss edirdi, çünki o, vahid idrak-nurlanma yaradıcı aktı ilə dünya Harmoniyasının məna və mahiyyətini dərk edirdi.Hər bir idrak – birləşmə-nurlanma aktında o, ümumi qlobal hərəkət, inkişaf prosesinin Ritmini dərindən duyaraq, Bilik Nurunu hopduraraq yer üzündə Təfəkkür Harmoniyası, həyat Harmoniyası yayırdı. Fikrən yaradıcı (mənəvi) aktın ən qızğın anına, vahid

substansional dünyaya nüfuz etmə, idrak aktında dünya prosesinin "işıq-şüa simləri"ndə ekviritmik vibrasiya etmə və onları həyatverici məna seqmentləri – başlanğıc xəzinəsinə çevirmə "hər şey Vahiddən" kimi ifadə olunan dünyagörüşü yönəlişliyi ilə dünyaya bütöv baxışın formalaşmasını izah edir. Buna görə də ilk əvvəl əzəldən "idrak ağacı" (sonralar "həyat ağacı") olmuş "dünya ağacı" konsepsiyası, musiqi mətnində burdonlu çoxsəslilik, habelə invariant-variant strukturu və s. ilə ifadə olunmuş paradiqma mövcuddur. İlk əvvəl sakral yüksəlişə - birləşmə-nurlanmaya qədər daxili axtarış-inkişaf sakral muğam elminin və ifaçılıq ənənəsinin təşəkkülündə təməl rolunu oynamış mənəvi ayin təcrübəsinin mahiyyətinin təşkil etmişdir.

Bəzən erkən idrak üsulunun spesifikliyinin başa düşülməsinin çətinliyi onun məntiqi dərketmə tərəfindən "kənara"a sıxışdırılması ilə şərtləndirilir, halbuki alimlərin əsərləri ilə tanışlıqdan aydın olduğu kimi, kontinual irrasional təfəkkür qütbü hər hansı yaradıcılıq aktında aparıcı rol oynamaqda davam edir. Belə ki, məsələn, fransız riyaziyyatçısı J.Adamar riyazi yaradıcılığın psixologiyasına dair araşdırmalarını ümumiləşdirərək yazır ki, sırf məntiqi kəşf mövcud deyildir, məntiqi fəaliyyətin başlanğıc nöqtəsi kimi "şüursuzluğun" müdaxiləsi zəruridir. [3].

Ritm-səslər stixiyasına qərq olma mahiyyət etibarilə əzəldən hər iki –daxilən hiss olunan gözəgörünməz və hisslərlə qavranılan fiziki dünyanın yanaşı mövcud olduğu şüurun sirrinə nüfuzetmə ilə şərtləndirilir. Onların hər biri musiqinin həm bədii, həm də elmi məcrada inkişafını irəlicədən müəyyən etmişdir. Qədimdən bəri musiqinin dərki prosesi, onun gerçəkləşdirilməsinin müxtəlif bədii formalarından (məsələn, təsviri, tətbiqi və s.) əlavə, fəlsəfi, ədəbi-bədii, psixoloji teoloji, astronomik, riyazi, fiziki, bioloji, tibbi və s. kimi bilik sahələrinə şaxələnir. Lakin dünya Harmoniyasının qanunu kimi musiqinin erkən (Şərq) dərkinin ciddi fərqi bundan ibarətdir ki, idrak forması – məna ilə nurlanma anına qədər mənəvi axtarış-inlkişaf ritminə qoşulma, eyni zamanda, Dünya Harmoniyası qanununun həyata keçməsini ifadə edirdi. Ehtimal ki, keçmişdən bizə qədər gəlib çatmış elm-təcrübə (elm-əməl) söz birləşməsi buradan qaynaqlanır. .

Yuxarıda yürüdülən mühakimələr belə bir nəticəyə gətirib çıxarır ki, üzvi və fiziki aləmlərin qanunlarının müasir dərk olunması səviyyəsinin dünya haqqında "sadəlövh erkən təsəvvürlər"lə müqayisəolunmazlığı və bir ölçüyə gəlməzliyi haqqında mövcud yanaşmaya rəğmən, təfəkkür prosesinin Harmoniyası ilə bağlı olan qlobal proqram çərçivəsində gerçəkləşdirilən əzəli idrak yolunun olması faktı onun yanlış olduğunu göstərən şəksiz tutarlı dəlillərdən biridir. Məhz Dünya Harmoniyası Qanunu ilə anlanan fövqəlmənanın mənəvi axtarışı qaydalarının sistemli dərki həm ruhi, həm də dünyəvi elmin konseptual əsasını yaratmışdır.

Erkən miqyaslı hərtərəfli idrakın müəyyənedici rolu bundan ibarətdir ki, uzaq keçmişin elmi uğurlarının yüksəliş-nurlanma yaradıcı prosesinin strukturlaşdırılması təcrübəsindən hasil olan və təcrübəsində gerçəkləşdirilən

məhsulları özlərinin spesifikliyi səbəbindən, nə dövr, nə də ayrı-ayrı coğrafiyalar və mədəniyyət sahələri ilə məhdudlaşdırılmadan bütün əsrlərdə və bütün həyati məkanda öz əhəmiyyətini saxlamışdır və saxlamaqdadır. Fərq mövcud müvəqqəti sərhədlə bağlıdır, həmin sərhədi keçdikdə və birmənalı şəkildə ayrı-ayrı hissi surətdə qavranılan dəyərlərə yönəldikdə dünya tədricən "mənəvi karlığa" qərq olmağa bağlamışdır.Nəticədə xarici amilin birmənalı üstünlüyü şəraitində harmonik inkişaf üçün zəruri olan mənəvi inkişaf səviyyəsinin nəql edilən Fikir səviyyəsinə uyğunluğu hissi itirilir.

Erkən keçmişdə intuitiv təfəkkürlə elmi biliklərin yoxluğunu əvəz edən, gələcək nəsilləri "mühəndis texnikası"nın məharəti ilə heyrətləndirərək (müasir insan üçün) zəruri texniki təchizat və onun haqqında xüsusi biliklər olmadan möhtəşəm tikililər ucaltmağa imkan verən informasiya dərk olunurdu.

Heyrətamiz forma hissi, mütənasblik, hissələr və tamın uyğunluğu (təbiətin "konstruktiv elementləri"ni təkrarlayan) duyğusu yalnız musiqi yaradıcılığının erkən növlərində, məsələn, mərasim nəğmələrində, muğam və aşıq yaradıcılığında deyil, həm də memarlıqda, qədim abidələrdə - qədim dövrdən qalmış, yetkin təfəkkür nümayiş etdirən tətbiqi məmulatların – xalıların, qabların, "bəzək əşyaları"nın, hətta kulinariya nümunələrinin və s. naxışlarında və boyalarında da üzə çıxır. Ən heyrətamiz cəhət bundan ibarətdir ki, bir çox qədimi nümunələr rasional zəkanın dərk etmədiyi sirri qoruyub saxlayır. Onların simvolikasında sıxılmış şəkildə müasir insanların hələ də dərk etmədikləri, gələcək nəsillər üçün sirr kimi qalan informasiya ehtiva olunur. Buna görə də belə bir ehtimal yaranır ki, daxili kontinual təfəkkür rasional ağlın anlaya bilmə hüdudlarından kənarda qalan məqamları dərk edirdi, çünki intuitiv təfəkkür mahiyyət təşkil edənləri – əsrlərlə toplanan insan biliyi – yaradıcı axtarış–nurlanma–gerçəkləşmə konseptual mehvərini üzə çıxarırdı.

Ruhi hadisəvi akt kimi yaradıcı idrak-nurlanmanın dramaturgiyası əsrlərdən keçərək, intellektuallar nəsilləri tərəfindən cilalanaraq, mənəvi fikrin əsl incisinə - Azərbaycan muğam dəstgahına çevrilmişdir. Postulat kimi irəli sürülən bu müddəa yalnız muğamın qaynağının dərki üçün deyil, həm də mədəniyyətin yaranması tarixinin onun mahiyyət cəhətdən rolu və əhəmiyyəti haqqında təsəvvürləri nəzərəçarpacaq dərəcədə dəyişdirən "oxunmamış" səhifələrin işıqlandırılması üçün müstəsna əhəmiyyətə malikdir. Muğamın yaradıcı idrak-nurlanma aktı ilə eyniləşdirilməsi baxımından, onun varlığı ilə dünyanın Mənasının dərk olunduğu sonsuz yüksəliş-nurlanma dairələrini təsvir edən mədəniyyətin mövcudluğu faktının özü mənaverici olur. İnsan (bəşəriyyət) şüurunu qlobal Formanın strukturlaşdırılmasına cəlb edən təfəkkürün prosessuallığı kimi mədəniyyətin işarəvi təbiəti haqqında ehtimal yaranır. Bu prosesin konfiqurasiyasını muğam-dəstgah formasının strukturlaşdırılması prinsipi yaradır.

Hazırda riyaziyyatçı, fizik və "dəqiq elmlər"in digər sahələrinə mənsub alimlərin ümumi nəzəriyyənin yaradılmasına yönəlmiş səyləri, təəssüf ki, son

nəticə verməmiş və dünyanın bütöv mənzərəsini yaratmamışdır. Kim bilir, bəlkə məhz musiqi, ilk növbədə, muğam fənlərarası elmi tədqiqat predmeti olmaqla elmi axtarışlarda düzəlişlər edə və bu qlobal problemin həllini yaxınlaşdıra bilər. Axı sakral elmin bünövrəsi idrak prinsipi kimi məhz muğam tərəfindən qoyulmuşdur. Mənəvi, ruhi prosesuallığa görə, "hər şey öz çıxış nöqtəsinə qayıdır". Humanitar elmlərin riyaziləşməsi və dəqiq elmlərin humanitarlaşması elmi axtarışın "hər növ biliklərin qaynağı" olan muğama doğru yönəlməsinin əlaməti deyilmi? ..

Şərh edilən nöqteyi-nəzər digər tədqiqatçıların, məsələn, İ.Gerasimovanın düşüncələrinə uyğun gəlir. İ.Gerasimovanın bu fikri buna əmin edir: "Musiqi təbiətən universaldır: musiqi formalarının riyazi, semiotik, sənətşünaslıq təhlilləri musiqi və təbiət strukturlarının, musiqi və verbal dilin qrammatikalarının, musiqi və digər incəsənət növlərinin patternlərinin ümumiliyini göstərir.Kim bilir, bəlkə də musiqinin öyrənilməsi, onun bütün qeyri-rasionallığı və spontanlığına rəğmən, dünyanın daha yaxşı dərkinə gətirib çıxaracaq?"[4,95] Fikrimizcə, muğam probleminin indi göstərilən dünya Qanunlarının elmi dərki cəhdləri kontekstində birgə multidissiplinar tədqiqi bu istiqamətdə atılan ilk addımlardan biri ola bilərdi.

ƏDƏBİYYAT

1. Налимов В. http://kirsoft.com.ru/freedom/KSNews_961.htm В.В. Налимов. Разбрасываю мысли. В пути и на перепутье Прогресс-Традиция, Москва, 2000 //
2. Мартынов В.И. «Конец времени композиторов» / Послесл. Т.
3. Чередниченко. — М.: Русский путь, 2002. – 296 с.3.
4. Адамар Ж. Исследование психологии процесса изобретения в области математики. Франция. 1959 г. Пер. с франц. Изд-во «Советское радио», Москва, 1970
5. Герасимова И. Музыка и духовное творчество. Ж.Вопросы философии, 1995.

Məqalənin redaksiyaya daxil olma tarixi: 01.06.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 03.06.2019
Məqalənin çapa qəbul olunma tarixi: 12.07.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.